# AZƏRBAYCAN 2021-ci İLDƏ MÜHÜM NAİLİYYƏTLƏR ƏLDƏ ETMİŞDİR




## *Ötən ilin ictimai-siyasi yekunları bunu əminliklə söyləməyə əsas yaradır*

Hazırda Azərbaycan beynəlxalq aləmdə mütərəqqi inkişaf modelinə və müstəqil siyasi kursa malik qalib, qüdrətli dövlət kimi özünü tam təsdiq etmiş, 1993-cü ildən başlayaraq tarixi nailiyyətlər əldə etməklə dünya birliyində söz və nüfuz sahibinə çevrilmişdir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən yaradılmış, Prezident cənab İlham Əliyevin milli maraqlara, çağdaş zəmanəmizin tələblərinə və çağırışlarına uyğun daxili və xarici siyasətin həyata keçirilməsi müstəqil dövlətimizin bütün nailiyyətlərinin əsasını təşkil edir.

Son bir ildə hərbi və diplomatik uğurlarını daha da möhkəmləndirən ölkəmiz milli maraq və mənafelərinin ən yüksək səviyyədə təmin edilməsinə nail olmuşdur. Azərbaycan Ermənistanın təxminən otuz ilə yaxın müddətdə, habelə 44 günlük Vətən müharibəsi zamanı respublikamızın ərazilərində törətdiyi genişmiqyaslı müharibə cinayətlərinin, vandalizm və dağıntıların əhatəli, real faktlar əsasında dünya ictimaiyyətinə çatdırılması, təcavüzkarın beynəlxalq miqyasda ifşası baxımından vacib üstünlüklər əldə edə bilmişdir.

**(davamı 6-cı səhifədə)**

# İlham Əliyev müsahibə verib

Amma bunu da heç kim bilmir. Bunu əlbəttə ki, biz gərək izləyək. Əsas məsələ özümüzü, hamımız özümüzü qorumalıyıq. Hər birimiz vaksin almalıyıq və vaxtaşırı o anticisimlərin sayını da yoxlamalıyıq. Mən də özümü yoxlatdırıram, qan analizi verirəm, baxıram. Mən nə üçün üçüncü dəfə peyvənd olundum?! Gördüm ki, artıq məndə anticisimlər azalır. Haradasa artıq o səviyyəyə düşə bilər ki, sanki peyvənd almamışam, ona görə üçüncü - "buster" dozanı aldım. Heç bir təsir yoxdur, Azərbaycanda ümumiyyətlə heç bir fəsad olmayıb. Çünki həm "Sinovac", həm "Pfizer" görünür ki, çox sağlam və keyfiyyətli vaksinlərdir. Ona görə məsləhətim budur və əlbəttə ki, özlərini qorusunlar, öz valideynlərini qorusunlar. Xüsusilə yaşlı insanlar özlərini qorumalıdırlar. Bütün bu yeni davranış qaydalarına biz gərək özümüzü uyğunlaşdıraq. İndi görək, deyirlər ki, bu viruslar illər keçdikcə öz gücünü itirir və sonra adi qrip halına çevrilir. Ümid edirəm ki, bunu da biz görəcəyik.

*–Cənab Prezident, icazənizlə Zəngəzur dəhlizi məsələsinə qayıdaq. Bir daha vurğuladınız ki, hansı yolla olursa-olsun bu dəhliz açılacaq və biz bir müddət əvvəl ötən ilin yekunlarından danışdıq. Ötən il də artıq siyasi-diplomatik müstəvidə biz bunun ritorikaya daxil olduğunu gördük, Brüssel səfərinizdə media nümayəndələri bu ifadəni işlətdi. Hətta ötən il mülki aviasiya sahəsində olmaq şərti ilə biz Zəngəzur dəhlizi üzərindən, hava məkanından artıq dəhlizin açıldığını gördük. Bəs, quru yolla açılma mərhələsi hansı yerdədir?*

–Hava məkanından istifadə etmək məsələsinə gəldikdə, onu da bildirməliyəm ki, biz bu dəhlizdən Ermənistandan icazə almadan istifadə etdik. Bunu hər kəs bilsin, biz onlardan icazə almamışıq. Bu, bizim hüququmuzdur, bu, beynəlxalq dəhlizdir. Dünya aviasiya sistemində qaydalar var, yəni, mövcud olan dəhlizdən istifadə etmək olar. Biz qərara gəldik ki, bundan da istifadə edək, Zəngəzur dəhlizinin hava versiyasını həyata keçirək. Naxçıvana uçan təyyarələr həm vaxta, həm də yanacağa qənaət edirlər. Amma əsas məsələ, əlbəttə ki, bu deyil. Əsas məsələ artıq bu dəhlizi açmaq idi.

Bildiyiniz kimi, Ermənistan tərəfi bu Zəngəzur dəhlizi ifadəsinə çox böyük qısqanclıqla yanaşır. Bilmirəm, nəyə görə? Amma deyə bilərəm ki, bu terminin - təvazökarlıqdan uzaq olsa da, - müəllifi mənəm. Nə üçün mən bunu məhz Zəngəzur adlandırdım? Ona görə ki, birincisi, bu, Zəngəzurdur, bunun tarixi adıdır. Azərbaycan toponimidir, necə ki, Zəngilan, Zəngəzur, Zəngi çayı, - hansı ki, ermənilər indi Razdan adlandırırlar, - Azərbaycan toponimidir. İkincisi, biz bu dəhlizə, sadəcə olaraq, dəmir yolu kimi baxmırıq. Çünki bu dəhlizdən həm dəmir yolu keçəcək, həm avtomobil yolu keçəcək. Bizim planımızda var, gələcəkdə oradan Naxçıvana elektrik xətləri çəkilsin. Çünki bizim elektrik enerjisi ilə bağlı çox böyük ixrac planlarımız var. Mən qeyd etdim ki, sabah 240 meqavatlıq külək elektrik stansiyasının təməli qoyulacaq. Cəbrayıl rayonunda 240 meqavatlıq yeni günəş stansiyasının tikintisi ilə bağlı xarici investorlar artıq bizə rəsmən müraciət edib. Xudafərin, Qız qalasında biz 140 meqavat elektrik enerjisi əldə edə bilərik. Kəlbəcər və Laçında isə 10 min meqavata yaxın potensial var, külək və enerji gücləri almaq imkanımız var. Ona görə biz elektrik xətləri də nəzərdə tuturuq. Ondan sonra ola bilsin ki, qaz xətləri də oradan keçsin. Bir xətt Qafandan, bir xətt Mehridən keçə bilər. Bir xətt Qarakilsədən keçə bilər, onlar Sisyan adlandırırlar. Ona görə Zəngəzur dəhlizi bütün Zəngəzur bölgəsini əhatə etməlidir. Ermənistan tərəfi, bildiyiniz kimi, ilkin mərhələdə həm bu söz ifadəsinə etiraz edirdi, həm də ki, bütövlükdə buna etiraz edirdi. Hətta bu gün də belə Ermənistan siyasi məkanında bu dəhlizin Ermənistan üçün əlverişsiz olması ilə bağlı fikirlər var.

Biz isə ardıcıl olaraq bu məsələnin həlli ilə bağlı çalışmışıq. Bildiyiniz kimi, Rusiya, Azərbaycan, Ermənistan baş nazirlərinin müavinləri səviyyəsində işçi qrup fəaliyyət göstərir. Onun başlıca vəzifəsi budur. Bu işçi qrup Ermənistan ərazisində olub və avtomobil yolunun mümkün olan marşrutlarını da incələyib. Çünki Ermənistan tərəfi ilkin mərhələdə qeyd edirdi ki, orada avtomobil yolu çəkmək mümkün deyil. Halbuki biz bilirik ki, bu, mümkündür və sovet vaxtında belə bir layihə var idi. Sovet vaxtında Ermənistan bu layihəyə etiraz edirdi və qeyd edirdi ki, bu, mümkünsüzdür. O vaxt Heydər Əliyev Moskvada Siyasi Büronun üzvü idi və sovet hökumətinin Nazirlər Soveti sədrinin birinci müavini idi. Məhz onun göstərişi və təkidi ilə Ermənistanın ovaxtkı rəhbərliyi - birinci katib və hökumətin rəhbəri məcbur olub bu layihəyə icazə verdilər. Necə icazə verdilər? O vaxt Dövlət Plan Komitəsi və digər aidiyyəti qurumlar yerində tanış oldular və bunu artıq plana salmışdılar. Avtomobil yolunun tikintisi də artıq başlanmışdı. Baxın, ermənilər hələ o vaxt istəmirdilər ki, Azərbaycan ilə Naxçıvan Muxtar Respublikası arasında avtomobil bağlantısı olsun. Hələ o vaxt buna müxtəlif bəhanələrlə etiraz edirdilər. Yəni, bu imkanlar var. Bu gün bu işçi qrup da bunu təsbit edib. Ermənistan isə ilkin mərhələdə dəmir yoluna elə bil ki, razılığını verdi. Ondan sonra avtomobil yolunun çəkilişinə razılığını verdi. Artıq bu, təsdiqləndi. Hazırda avtomobil yolunun marşrutu məsələsi müzakirə olunur, haradan keçəcək. Bizim əsas şərtimiz ondan ibarətdir ki, ən qısa marşrut olmalıdır və ilin bütün fəsillərində bu marşrutdan istifadə etmək mümkün olsun. Çünki orada həm hava şəraiti bəzi yerlərdə əlverişsizdir, həm relyef. Bax belə. Bu dəhlizlə bağlı məsələ bu yerdədir.

Onu da bildirməliyəm ki, bizim səylərimiz nəticəsində artıq bu termin beynəlxalq leksikona da daxil edilib. Hətta qeyd etdiyiniz kimi, xarici jurnalistlər mənə sual verdikdə də Zəngəzur dəhlizi deyirlər. Bunu hər dəfə eşitdikcə, necə deyərlər, mənə çox xoş olur. Hər dəfə təxmin edirəm ki, Ermənistan tərəfi yəqin, yenə də başını divara vurur. Ona görə ki, bu, artıq beynəlxalq leksikona daxil edildi və əlbəttə, həyata keçiriləcək.

Bildiyiniz kimi, 3+3 formatı çərçivəsində də, - baxmayaraq, birinci görüş tanışlıq xarakteri daşıyırdı, - mən əminəm ki, ikinci görüşdə daha predmetli müzakirələr aparılacaq, ilk növbədə, kommunikasiyaların açılması ilə bağlı. Burada hər bir ölkənin fayda götürməsi göz önündədir. Sadəcə olaraq, Ermənistan öz antiazərbaycan, islamofob, antitürk xislətlərindən əl çəkməlidir. Ermənistan da təbii olaraq bundan fayda götürə bilər.

*–Cənab Prezident, Zəngəzurla bağlı biz bilirik ki, Sizin şəxsi tarixçəniz də var. Siz Naxçıvana səfəriniz zamanı öz əcdadlarınızı ziyarət etdiniz. Şuşa azad olunanda Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət etməyinizi bunun davamı hesab edə bilərikmi?*

–Bəli, belədir. Mən təşəkkür edirəm ki, siz bunu belə qəbul etdiniz, bəli. Məhz bu idi mənim ürəyimdə olan fikirlərim və ürəyimdə olanları mən hələ ki, deməyəcəyəm. Amma babamın məzarını ziyarət etməklə, eyni zamanda, ürəyimdə olan sözləri dedim. Baxmayaraq ki, mən babamı görməmişəm, o, həyatdan gedəndə mən hələ doğulmamışdım. Amma bildiyiniz kimi, o, Zəngəzurda doğulmuşdur, erməni etnik təmizləmə siyasətinin də qurbanı olmuşdur, onun ailəsi məcburən oradan köçüb Şahbuza, ondan sonra Naxçıvanda yerləşmişdir.

Əlbəttə ki, biz əcdadlarımızın yolu ilə getməliyik. Onların ruhlarını həmişə şad etməyə çalışmalıyıq. Azərbaycan xalqının üstünlüyü ondadır ki, biz öz qədim ənənələrimizə sadiqik. Bu nöqteyi-nəzərdən, hər birimiz üçün onun ailəsi, onun ulu babaları, əcdadları böyük əhəmiyyət kəsb edir, o cümlədən mənim üçün. Orada babamın məzarı önündə ürəyimdə dediyim sözləri ola bilsin ki, nə vaxtsa dilə gətirəcəyəm.

*–Cənab Prezident, münaqişədən sonrakı dövr, müharibədən sonrakı dövr barədə danışarkən Azərbaycanın beynəlxalq arenada artmış rolunu qeyd etməmək mümkün deyil. Siz dediyiniz kimi, Azərbaycan regionda gedən prosesləri, sadəcə, müşahidə etmir, Azərbaycan regionun gündəliyini diktə edir. Bunun təməlində hansı amillər durur və bu, ölkənin Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində necə əks olunub?*

–Bəli, siz tamamilə haqlısınız. Bu gün regional gündəlikdə duran məsələlər çox cəhətdən bizim fəaliyyətimizlə bağlıdır və bizim təşəbbüslərimizin çoxu, tərəfdaşlarımızın təşəbbüslərinin çoxu bizim iştirakımız və müsbət münasibətimiz olduğu halda reallaşır. Bununla paralel olaraq deməliyəm ki, bu, qarşılıqlı faydalı əməkdaşlığa yönəlib. Energetika, nəqliyyat, humanitar məsələlərlə, multikulturalizmlə bağlı bütün təşəbbüslər regionda daha çox proqnozlaşdırılan vəziyyətə, həm siyasi, həm iqtisadi fayda əldə edilməsinə hədəflənib. Ona görə də bu halda artıq uzun illər ərzində Azərbaycanın təşəbbüsləri ilə bağlı olan hər şey apriori, düşünülmüş və həyata keçirilmək üçün zəmin olan təşəbbüs kimi qəbul edilir. Onu da deməliyəm, elə bir hal olmayıb ki, biz kiməsə ağıllı görünmək və ya kiminsə xoşuna gəlməkdən ötrü hansısa xəyalpərəstliklə, populizmlə, havaya sözlə və ya hansısa bayağı, çeynənmiş terminlərin artikulyasiyası ilə məşğul olaq. Yəni, bizim təşəbbüs göstərdiyimiz hər şey yerinə yetirilə bilən idi və yerinə yetirildi.

Qoşulmama Hərəkatına gəlincə, əlbəttə bu, Azərbaycan üçün yeni roldur. Xüsusən ona görə ki, bizim ölkəmiz bu təşkilata daxil olan son ölkələrdən biridir. Biz yeni üzvük. Lakin biz dərhal bütün ölkələrin etimadını və hörmətini qazana bildik. Buna görə də ölkələr iki dəfə bizim lehimizə səs verdilər. Yəni bir dəfə bizim rəhbərlik etməyimizə etimad göstərdilər, sonra isə yekdilliklə təklif etdilər ki, biz sədrliyimizi daha bir il uzadaq. Biz buna formal baxımdan deyil, hansısa fayda və ya hansısa güzəşt naminə deyil, bizim nə edə biləcəyimiz və bu təşkilatı necə möhkəmlədə biləcəyimiz baxımından yanaşırıq. Çünki mən sırf mexaniki surətdə təşkilat deyirəm, amma bu, təşkilat deyil, Hərəkatdır və beynəlxalq terminologiyada o, təşkilat adlandırılmır. Lakin, düşünürəm ki, institusionallaşdırma yolu ilə getmək lazımdır. Bu yolda biz müəyyən addımlar atmışıq. Birincisi, Hərəkatın üzvü olan parlamentlərin başçılarının qarşıdakı Bakı görüşüdür. Biz parlament elementi yaratmaq istəyirik. Artıq razılıq əldə edilib. Həmçinin bu Hərəkatın gənclər elementini də yaratmaq və beləliklə, struktur dəyişiklikləri yolu ilə getmək istəyirik. Əlbəttə, bu, bütün ölkələrin razılığını tələb edəcək. Bilirsiniz ki, Hərəkatın üzvü olan bəzi ölkələr arasında mürəkkəb münasibətlər var. Biz bütün bunları nəzərə alırıq və buna görə də çox səliqə ilə, lakin israrla hərəkət edirik.

Pandemiya vaxtı bizim gördüyümüz işlər, beynəlxalq təşəbbüslər, Hərəkatın sammiti, BMT-nin Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi təşəbbüsü, BMT-nin İnsan Haqları Şurasında aldığımız dəstək, yaxın vaxtlarda Baş Assambleyada planlaşdırılmış, lakin COVID-19 səbəbindən təxirə salınmış müzakirə - bütün bunlar Hərəkatın nüfuzunu artırır. O, beynəlxalq arenada daha tanınmış, daha nəzərəçarpan olur. Biz, eyni zamanda, hətta COVID pandemiyasına qədər üzv ölkələrə kömək göstərmişik. Bizim çoxlu humanitar proqramlarımız var ki, bu barədə bəlkə də Azərbaycan ictimaiyyətinin məlumatı yoxdur. Xarici İşlər Nazirliyi tərkibində Beynəlxalq Yardım Agentliyinin xətti ilə biz çox ölkələrə humanitar yardım göstəririk, pandemiya dövründə isə biz 80-dən çox ölkəyə həm maliyyə yardımı, həm də maddi yardım göstərmişik. Bu, əlbəttə, yüksək qiymətləndirilir. Xüsusən ona görə ki, bu ölkələrin resursları məhduddur, onlar vaksin millətçiliyindən əziyyət çəkirlər. Fikrimcə, bu məsələni beynəlxalq səviyyədə bizdən çox qaldıran olmayıb. Bu, hiddətləndirici ədalətsizlikdir ki, özlərini demokratiya, insan hüquqları bərabərliyi mənbələri kimi göstərməyə çalışan ölkələr onlara lazım olduğundan üç-dörd dəfə artıq vaksin alırlar, sonra bu vaksinlərin istifadə müddəti bitir və onları tullayırlar. Yoxsul ölkələrə isə, əslində, heç nə qalmır. Axı, bu statistika məlumdur. Bu, hiddətləndirici ədalətsizlikdir. Bu, bütün mənəvi oriyentirlərin və hansısa hüquqdan, ədalətdən danışmaq haqqının tamamilə itirilməsidir. Azərbaycan bu mürəkkəb funksiyanı öz üzərinə götürüb. Biz başa düşürük ki, Afrika ölkələrində və digər yerlərdə insanların öldüyü bir vaxtda, - sadəcə, orada statistika aparılmır, - öz əhalisini artıq üç doza ilə təmin edəndə özlərini çox yaxşı hiss edən bir sıra ölkələrlə qarşıdurmaya gedirik. Biz şüurlu olaraq buna getdik. Məhz ona görə ki, biz buna inanırıq və ona görə ki, konyunkturanı deyil, prinsipləri rəhbər tuturuq. Bu, bizim ölkəmizə daha çox hörmət qazandırdı. Hərəkata üzv ölkələrin çoxu indi Azərbaycanı onların maraqlarını açıq şəkildə müdafiə edə bilən ölkə kimi görürlər. Yeri gəlmişkən, Bakıda keçirilən sammitdə, sədrlik funksiyasını öz üzərimə götürəndə demişəm ki, biz üzv ölkələrin maraqlarını, beynəlxalq hüququ və ədaləti qoruyacağıq. Biz bunu edirik və Hərəkatın nüfuzunu yüksəltməyə, struktur dəyişiklikləri yolu ilə getməyə səy göstərəcəyik.

*–Cənab Prezident, Azərbaycanın Avropa İttifaqı ilə əlaqələri barədə də soruşmaq istəyirəm. Ötən ilin iyul ayında Avropa İttifaqının Prezidenti Azərbaycana gəldi. Siz isə dekabr ayında Brüsselə getdiniz. Bakı-Brüssel əlaqələrinin perspektivini necə qiymətləndirirsiniz?*

–Mən müsbət qiymətləndirirəm. Prezident Şarl Mişelin Azərbaycana səfəri və burada keçirdiyim görüş çox müsbət idi. Brüsseldə keçən ay keçirdiyimiz görüşlə bağlı eyni sözləri deyə bilərəm. Bizim üçün əsas məsələ, Avropa İttifaqı ilə gələcək planlarımızı düzgün tərtib etmək idi. Mən bunu dəfələrlə keçmiş rəhbərliklə görüşlər əsnasında dilə gətirmişdim. Deyirdim ki, bilirsiniz, bizim hər hansı bir xüsusi gözləntilərimiz yoxdur. Bildiyiniz kimi, biz assosiasiya sazişinə qoşulmadıq. Bu gün həyat göstərir ki, haqlı idik. Çünki qoşulan o biri ölkələr haqqında mən indi bir şey demək istəmirəm. Əgər biz real baxsaq bu assosiasiya sazişi nə verdi?! Əlbəttə ki, sual doğurur. Yəni, üzvlük perspektivi varmı? Yoxdur. Yəni, yaxın gələcəkdə və orta müddətli gələcəkdə yoxdur. Hansısa başqa imtiyazlar varmı? Bilmirəm. Hər halda yenə də deyirəm. Bizim mövqeyimiz həmişə realist olub. Deyirdim ki, biz gərək həyata keçirə bilmədiyimiz şeylərin, necə deyərlər, ətəyindən yapışmayaq. Real. Biz istəyirik ki, Avropa ilə daha yaxın əlaqələr olsun. Avropa da istəyir ki, onun sərhədlərində vəziyyət sabit olsun. Hesab edirəm ki, cənab Mişellə görüşlər əsnasında biz bu gündəliyi formalaşdıra bildik. Ümid edirəm, bu müştərək yanaşma imkan verəcək ki, tezliklə yeni sazişi də tamamilə razılaşdırılacaqdır. Çünki hazırda sazişin təqribən 90-92 faizi razılaşdırılıb. Bir neçə maddə var ki, orada fikir ayrılığı var. Amma hesab edirəm ki, ciddi iradə göstərilərsə, hər iki tərəfdən buna biz nail ola bilərik.

Əlbəttə ki, bizim əlaqələrimiz üçün yeni səhifə açılacaqdır. Bununla paralel olaraq Avropa İttifaqı ilə bizim gündəliyimiz onsuz da çox genişdir. Bunu mən artıq dəfələrlə demişəm ki, 9 ölkə ilə biz strateji tərəfdaşıq. Enerji təhlükəsizliyi baxımından fəal əməkdaşlıq edirik. Xüsusilə indiki şəraitdə. Avropada qaz böhranı yaşanır. Bizim qazımıza böyük ehtiyac var. İndi artıq bu, açıq mətbuata da çıxır. Mən Bolqarıstanla olan məsələləri nəzərdə tuturam. Bilirsiniz ki, bu, bizdən yox, Bolqarıstandan çıxıbdır. İndi bu məsələnin mahiyyəti yəqin ki, bəllidir. Ona görə buna böyük ehtiyac var. Azərbaycan da etibarlı təchizatçıdır. Uzun illər ərzində neft təchizatçısı olaraq etibarlı tərəfdaş kimi rol oynayıb, o cümlədən Avropa üçün qaz təchizatçısı kimi. Onların bizim nəqliyyat imkanlarımıza böyük marağı vardır. Onu da bildirməliyəm ki, Avropa İttifaqı Şurasının keçmiş prezidenti cənab Tusk 2019-cu ildə Bakıda olarkən, xüsusilə Ələtə getmişdir. Beynəlxalq Dəniz Limanına gedib orada vəziyyətlə tanış olmuşdur. İndiki Prezident Mişelə isə Şamaxıya səfəri çərçivəsində orada həm Ələt İqtisadi Zonası ilə, həm də limanla bağlı təqdimat edilmişdir. Yəni, bu sahəyə çox böyük maraq var.

Azərbaycanda yaradılmış nəqliyyat infrastrukturu ən müasirdir. Demək olar ki, bütün işlər artıq tamamlanıb. Bu, Avropa üçün böyük maraq kəsb edir. Şarl Mişel Azərbaycanda olarkən, Şamaxıya gedəndə yol üstündə Azərkosmosu da ziyarət etdi. İndi Azərbaycanın Avropa tərəfdaşları ilə kosmik sahədə yeni əməkdaşlıq formatı yaradılır. Bu da çox müsbətdir. Biz, əlbəttə ki, texnologiyaların Azərbaycana gətirilməsində maraqlıyıq. Biz bu texnologiyaları Avropadan alırıq, Avropa isə bizim enerji resurslarımızı alır. Yəni, burada qarşılıqlı maraqlar uzlaşır. Narahatedici məqamlar demək olar ki, yoxdur. Ya da ki, son hadisələrə qədər yox idi. Onu da mən cənab Mişelə həm Bakıda, həm Brüsseldə demişəm. O da Ermənistana və Azərbaycana nəzərdə tutulan maliyyə paketinin həcmi ilə bağlıdır. Biz çox təəccüb etdik ki, böyük dağıntılara məruz qalmış Azərbaycana cəmi 140 milyon, Ermənistana isə 2,6 milyard avro maliyyə paketi nəzərdə tutulur. Bu, ədalətsizlikdir. Hətta onu deyə bilərəm ki, dekabr ayında Brüsseldə İtaliya jurnalistinə müsahibə verərkən jurnalist məndən soruşdu ki, bu nə dərəcədə ədalətlidir. Yəni, bunu təkcə mən demirəm. Artıq bu Avropa məkanına yayılmış bir məsələdir. Mən bunu ictimai qaydada da dilə gətirmişəm həmişə. Bu, ədalətsizlikdir və bunun izahatı bizə lazımdır. Əgər bu ədalətsizlik həyatda öz əksini taparsa, əlbəttə ki, biz səssiz qalmayacağıq. Nəinki səssiz qalmayacağıq, bu, Avropa İttifaqı-Azərbaycan əlaqələrinə çox böyük mənfi təsir göstərəcək. Çünki əhali və ərazi baxımından Azərbaycan Ermənistandan beş dəfə böyükdür. Ermənistanda bir dənə də bina dağılmayıb. Bizim Livan boyda ərazimiz tamamilə yerlə-yeksan edilib. Bizə cəmi 140 milyon, onlara 2,6 milyard? Hansı əsasla, əsas nədir?! Qoy, izahat versinlər. Mən məsələni elə qoymuşam ki, Ermənistana hansı şərtlərlə və hansı məbləğdə vəsait veriləcəksə, eyni şərtlərlə eyni məbləğdə bizə də verilsin. O izahat ki, Azərbaycanın pulu çoxdur, Ermənistanın pulu azdır. Bu, nə dərəcədə ədalətlidir? Ola bilməz. Ona görə bu son hadisələrdə yeganə narahatlıq və problem yarana biləcək məsələ budur. Bizim aramızda hər hansı başqa bir fikir ayrılığı yoxdur. Şərq Tərəfdaşlığının son Zirvə Görüşü də bunu göstərdi. Avropa İttifaqı ilə əminəm ki, əlaqələrimiz uğurla davam etdiriləcək. Bu, bizim üçün önəmlidir, bizim xarici siyasət konsepsiyamızın tərkib hissəsidir.

*–Cənab Prezident, Avropa İttifaqı ilə bağlı qısa sual vermək istəyirəm. Avropa İttifaqı əvvəlki dövrlərdən fərqli olaraq, Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsində müəyyən rol oynamağa çalışır. Bu, Brüsseldə keçirilən görüşdən göründü. Bəzən ekspertlər camiyəsində belə bir fikir yaranır ki, bu məsələdə Moskva ilə Brüssel arasında müəyyən bir rəqabət var. Siz necə hesab edirsiniz, Azərbaycanla Ermənistanı yaxınlaşdırmaqda bir tərəfdaş və bir vasitəçi kimi Avropa İttifaqının rolu ola bilərmi?*

–Bəli, əlbəttə, ola bilər. Mən Brüsseldə olarkən orada Avropa İttifaqının rəhbərliyinə də bu haqda bildirdim ki, ola bilər. Əsas odur ki, bu gündəlik düzgün tərtib edilsin və Ermənistan da burada özünü səmimi aparsın. Çünki bilirsiniz, Ermənistan bir çox hallarda bir tərəfdaşa bir söz deyir, o biri tərəfdaşa bunun əksini deyir, üçüncü tərəfdaşa isə üçüncü versiyanı deyir. Yəni, bu, uzunmüddətli siyasət ola bilməz. Çünki gec-tez bunun üstü açılacaq. Bizim isə mövqeyimiz birmənalıdır və mən bunu açıq bəyan edirəm və bəli, hesab edirəm ki, Ermənistan-Azərbaycan əlaqələrinin normallaşmasında Avropa İttifaqı rol oynaya bilər. Mən bunu müsbət qarşılayıram və sadəcə olaraq, burada ədalət prinsipi əsas rol oynamalıdır. Çünki bu günə qədər bəzi ölkələrdən fərqli olaraq, Avropa İttifaqı ədaləti qorumuşdur. Qeyd etdiyim kimi, müharibə zamanı Fransa baxmayaraq ki, neytral olmalı idi, vasitəçi kimi birmənalı şəkildə Ermənistan tərəfini tutdu. Müharibədən sonra Amerika Birləşmiş Ştatları, halbuki vasitəçidir, neytral olmalıdır, açıq şəkildə Ermənistan tərəfini tutdu. Təkcə elə mətbuatda olan iki hadisəni qeyd etməklə, bunu sübut etmək olar. Birincisi, Ermənistanı dırnaqarası "demokratiya zirvəsinə" dəvət etməsi, halbuki Ermənistan və demokratiya - bunlar fərqli qütblərdir. Ermənistanda insan haqları kobudcasına pozulur, siyasi müxalifət həbsə atılır və siyasi rəqiblər təqib edilir. Ermənistan, necə deyərlər, hansı əməllərə görə ora dəvət edilib ki, Azərbaycan dəvət edilməyib. Yəni bu, açıq ayrı-seçkilikdir. İkinci də, bu yaxınlarda Ermənistan Təhlükəsizlik Şurasının katibi Vaşinqtona dəvət edilib, orada görüşlər keçirir. Azərbaycan Təhlükəsizlik Şurasının katibi isə dəvət edilməyib. O, başqa məsələdir ki, biz dəvət olunmamışıq, heç nə itirmirik və demokratiya uğrunda dırnaqarası "zirvə görüşündə" iki dəqiqəlik çıxış üçün adam özünü heç əziyyətə verməməlidir. Amma fakt odur ki, burada balans pozulur, nümayişkaranə göstərilir ki, indiki Amerika administrasiyası birtərəfli olaraq Ermənistan tərəfindədir və bu, onların öz işidir. Biz, necə deyərlər, sadəcə olaraq, öz fikirlərimizi bildiririk və əlbəttə ki, öz siyasətimizdə bunu nəzərə alacağıq. Avropa İttifaqı belə balansı pozan hadisələrdə olmayıb. Son Brüssel görüşündə də tam paritet saxlanılıb və bu, deməyə əsas verir ki, onlar iki ölkə arasındakı əlaqələrin normallaşmasında müsbət rol oynaya bilərlər. Bu ola bilər, eyni zamanda, Zəngəzur dəhlizinin fəaliyyəti ilə bağlı, iqtisadi və maliyyə yardımı ilə bağlı, qeyd etdiyim kimi, əgər bu, ədalətli olarsa. Avropa məkanında böyük intellektual potensial mövcuddur, təcrübə mövcuddur və sərhədlərin müəyyən edilməsində onlar öz tövsiyələrini verə bilərlər. Yəni bir çox sahələrdə onlar yardımçı ola bilərlər. Hər halda biz bunu alqışlayırıq.

*–Cənab Prezident, əgər Avropa və qarşılıqlı maraq məsələsini davam etdirsək, Siz artıq qeyd etdiniz ki, Azərbaycan uzun illərdir Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında əsas rol oynayır və bu status artıq 2020-ci ilin son günündə Cənub Qaz Dəhlizinin istifadəyə verilməsi ilə daha da möhkəmlənib. Onu da vurğuladınız ki, hazırda dünyada, ələlxüsus Avropada qaz böhranı yaşanır. Biz həm də bilirik ki, Cənub Qaz Dəhlizinin ixracat imkanları da daha da genişdir. Bunu qarşılıqlı, müqayisəli təhlil etsək, hansı reallıqlar üzə çıxır və perspektivlər necə görünür?*

–Birinci onu deməliyəm ki, Cənub Qaz Dəhlizinin reallaşması birmənalı şəkildə tarixi hadisədir və bu nəhəng enerji layihəsini bu dərəcədə, yəni keyfiyyətlə və çətin geosiyasi vəziyyətdə həyata keçirmək doğrudan da böyük səylər tələb edirdi. Burada Azərbaycan bir neçə ölkəni bir komanda şəklində necə deyərlər, səfərbər edib. Bu işə biz birlikdə nail olmuşuq və gələn ay Bakıda növbəti dəfə Cənub Qaz Dəhlizinin Məşvərət Şurası keçiriləcək, ənənəvi olaraq bizim təşəbbüsümüzlə Bakıda keçirilir. Hər dəfə bu görüşlərdə mən özüm şəxsən iştirak edirəm və görüləcək işlərlə bağlı geniş fikir mübadiləsi aparılır, artıq orada iştirak edən ölkələrin sayı genişlənir. Üstəgəl, orada bütün aparıcı banklar iştirak edir - Dünya Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnfrastruktur Bankı - yəni, bütün aparıcı maliyyə qurumları, həmçinin şirkətlər iştirak edir. Ona görə Cənub Qaz Dəhlizinin əhəmiyyətini bəlkə də indi Avropada daha çox görürlər. Çünki bu qaz böhranı bunları böyük dərəcədə sarsıtdı - həm qiymətlər, həm qazın qıtlığı, həm qaz anbarlarının dolu olmaması.

Qış təzə başlayır və gözlənilir ki, qış çox sərt olacaq. Ona görə qazın çatışmamazlığı böyük fəsadlara gətirib çıxaracaq. Azərbaycan qazının həcmi o qədər də böyük deyil, amma bir neçə ölkə üçün bu, həlledici ola bilər və əlbəttə ki, ilk növbədə, burada bizim maraqlarımız təmin olunur. Çünki əgər bu kəmər çəkilməsəydi, biz zəngin qaz ehtiyatlarının üstündə, necə deyərlər, oturacaqdıq, nəyi isə gözləyəcəydik. Əgər bu perspektiv olmasaydı, heç bir şirkət milyardlarla, on milyardlarla dollar vəsaiti bu yataqların işlənməsinə qoymazdı. Hazırda ixrac artır, yeni rəqəmlər mənə təqdim edildi. Bu il təxminən 19 milyard kubmetr qaz ixrac ediləcəkdir. Ondan 8 milyarddan çoxu Türkiyə, 7 milyarddan çoxu İtaliyaya ixrac ediləcək. Qalan qaz Gürcüstan, Bolqarıstan, Yunanıstan arasında bölünəcək. Yəni bu, böyük rəqəmdir və eyni zamanda, daxili tələbat da artır və artacaq. Biz daxili tələbatı ödəyirik. Bütövlükdə Azərbaycanda 45 milyard kubmetr qazın hasilatı gözlənilir. Qeyd etdiyim kimi, 19 milyard ixraca gedəcək, qalan hissə isə daxili tələbata və lay təzyiqini saxlamaq üçün neft laylarına yenidən qazın vurulmasına. Bu, böyük həcmdir və əlbəttə, bizə imkan verəcək ki, həm öz tələbatımızı ödəyək, eyni zamanda, Avropa məkanına daha böyük həcmlə çıxa bilək. Məhz bizim bu layihəmiz, eyni zamanda, Avropa ölkələri arasındakı interkonnektorların, bağlantıların tikintisinə də rəvac verdi və indi orada bu sahədə də işlər görülür. Beləliklə, fiziki olaraq, yəni infrastruktur nöqteyi-nəzərindən biz qazımızı başqa ölkələrə də çatdıra bilərik, nəzərə alsaq ki, "Şahdəniz"in çox böyük potensialı var. Bunun, düzdür, təsdiq edilmiş həcmi 1 trilyon kubmetrdən çoxdur. Amma mən tam əminəm ki, daha çox olacaq, necə ki, Azəri-Çıraq-Günəşli. İlkin hesablamaları göstərirdi ki, 500 milyon tondur, amma bunun potensialı artıq 1 milyardı ötür. Üstəgəl, gələcəkdə Abşeron qaz yatağı istismara veriləcək. Ümid, Babək, Asiman, yəni bir çox qaz yataqlarımız tədricən artıq işlək vəziyyətə çıxacaq və bizim həcmimiz böyük dərəcədə artacaq. Bu, bizim böyük üstünlüyümüzdür. Həm ölkəmizə əlavə vəsait gətirəcək, ölkəmizin beynəlxalq imkanları genişlənəcək və təbii ki, Avropa İttifaqı-Azərbaycan əlaqələrində bu faktor bundan sonra da mühüm rol oynayacaq.

*–Cənab Prezident, icazənizlə sonuncu sualı vermək istərdim, çünki artıq üç saata yaxındır davam edir. Təşəkkür edirəm ki, yorulmadan müsahibə verirsiniz. Bu, sonuncu sualımızdır. Hazırda dünyada beynəlxalq hüququn ciddi böhranı yaşayır. Hüquq amili geri çəkilir, güc amili önə çıxır. Bunu bir çox siyasi araşdırmaçılar deyir. Daha dərinə gedib deyənlər var ki, yeni dünya düzəni formalaşır, dünyanı yenidən nüfuz dairələrinə bölmək istəyirlər və yaxud da bölmək fikrindədirlər. Yeni Yalta deyənlər də var. Sizin baş verən bu proseslərə münasibətiniz necədir? Bu proseslər Azərbaycan qarşısında hansı yeni çağırışlar yaradır?*

–Mən sizin fikrinizlə razıyam və onu da bildirməliyəm ki, bu meyilləri mən uzun illər müşahidə edirəm. Çünki indi bir çox təmaslar əsnasında, görüşlər əsnasında görürəm və görürdüm ki, ənənəvi davranış qaydaları artıq tükənir. Baxmayaraq ki, onlar hələ sözdə tələffüz edilir, amma real həyatda bəyan edilmiş açıqlamalar real həyatla uzlaşmır. Əgər yadınızdadırsa, artıq son illərdə, hətta pandemiyaya qədər mən öz çıxışlarımda dəfələrlə deyirdim ki, indi güc amili ön plana çıxır və biz buna hazır olmalıyıq. Deyirdim ki, bu, bizim seçimimiz deyil. Biz hər zaman beynəlxalq hüququn aliliyini müdafiə edirdik və ümid edirdik ki, bu, bizim məsələmizin həllinə, bizə köməklik göstərəcək. Amma görürük ki, bu, yoxdur, bu, işləmir. Münaqişələr uzun müddət həll olunmayanda, bu münaqişələrlə məşğul olanlar və ümumiyyətlə, beynəlxalq aləm dediyimiz bir toplum bu münaqişələrdən yorulur.

**(davamı 6-cı səhifədə)**

# AZƏRBAYCAN 2021-ci İLDƏ MÜHÜM NAİLİYYƏTLƏR ƏLDƏ ETMİŞDİR

## Ötən ilin ictimai-siyasi yekunları bunu əminliklə söyləməyə əsas yaradır

(əvvəli 1-ci səhifədə)

Azərbaycanda səfərdə olan xarici ölkə rəsmilərinin, parlamentarilərinin, tanınmış media və qeyri-hökumət təşkilatlarının, dini icmaların nümayəndələrinin işğaldan azad edilmiş ərazilərə səfərlərinin təşkili dünya birliyinə azad edilmiş ərazilərdəki real vəziyyət barədə əhatəli və obyektiv informasiya çatdırıb, Ermənistanın hibrid müharibədə mövqelərini sarsıdıb.

Düşmən tərəfin 2020-ci il noyabr ayının 10-da üçtərəfli Bəyanatın imzalanmasından sonrakı dövrdə təxribatçı davranışlarına görə tutulmuş diversant-terrorçuları "hərbi əsir" kimi qələmə vermək cəhdlərinin əsassız olması tam sübuta yetirilib. Yüksək humanizm prinsiplərindən çıxış edən Azərbaycan saxlanılmış erməni hərbçilərin böyük bir qismini Ermənistana təhvil verərək rəsmi İrəvanın uydurma iddia və bəhanələrinin qarşısını alıb.

Bununla yanaşı, ölkəmiz yalnız diplomatik və təbliğati-siyasi sahədə deyil, həmçinin hüquqi çərçivədə də işlər görüb, Ermənistanın beynəlxalq məhkəmələrə verilməsi istiqamətində praktik addımlar atıb. İl ərzində Ermənistana qarşı Avropa İnsan Hüquqları Məhkəməsi və Beynəlxalq Ədalət Məhkəməsində hüquqi iddiaların qaldırılması İrəvanın ifşası baxımından səmərəli olub. Beynəlxalq Ədalət Məhkəməsinin Ermənistandan azərbaycanlıların insan hüquqlarının pozulmasının qarşısını almaq üçün təcili tədbirlər görməyi tələb etməsi Azərbaycanın növbəti mühüm diplomatik uğuru sayılmalıdır.

Bədnam qonşumuz müharibədən sonra sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə süni problemlər yaratmağa, zəbt etdiyi bəzi əraziləri tərk etməməyə çalışsa da, hüquqi-siyasi reallıqlar, eləcə də Ordumuzun adekvat müdaxiləsi qarşısında geri çəkilməyə məcbur olub. 44 günlük Vətən müharibəsindən sonra dövlət başçımız cənab İlham Əliyevin siyasi, diplomatik və hərbi sahələrdə apardığı fəal və gərgin iş Cənubi Qafqazda yeni siyasi reallığın legitimləşdirilməsinə yönəlib. Məhz bunun nəticəsidir ki, dövlətimiz 2021-ci il ərzində haqlı və ədalətli yanaşmasını dünyanın fövqəlgüc dövlətlərinə və aparıcı təşkilatlarına qəbul etdirməyə nail olub.

Bütün dünya ictimaiyyəti, xüsusilə də aparıcı dövlət və təşkilatlar cənab İlham Əliyevin konstruktiv, ədalətli və prinsipial yanaşmasını əsas tutaraq, hazırda Ermənistanla Azərbaycanın məhz sərhədlərin delimitasiya və demarkasiyası, humanitar problemlərin həlli, kommunikasiyaların bərpası məsələləri ətrafında danışıqlar aparmasını dəstəkləyir.

Prezident cənab İlham Əliyevin 2021-ci ildə Azərbaycanda bir sıra dövlət və hökumət başçıları - aprel ayında Belarus Prezidenti Aleksandr Lukaşenko, iyul və oktyabr aylarında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, iyul və dekabr aylarında Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, sentyabr ayında Gürcüstanın Baş naziri İrakli Qaribaşvili və noyabrda Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Şefik Caferoviçlə görüşləri qarşılıqlı faydalı münasibətlərin inkişafı baxımından əhəmiyyətli olub.

Xüsusilə vurğulamaq lazımdır ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşa şəhərinə səfəri çərçivəsində iyunun 15-də "Azərbaycan ilə Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması yola saldığımız ilin ən mühüm siyasi hadisələrindən biri olaraq ikitərəfli münasibətlərdə yeni səhifə açıb.



Cənab İlham Əliyevin yanvar, iyul və noyabr aylarında Rusiya Federasiyasına, eləcə də noyabr ayında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə görüşündə iştirak etmək üçün Türkiyəyə, yenə də noyabrda İqtisadi Əməkdaşlıq Təşkilatının XV Zirvə Toplantısında iştirak etmək üçün Türkmənistana, 2021-ci ilin dekabrında isə Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramının VI Sammitində iştirak etmək üçün Belçika Krallığının paytaxtı Brüsselə səfərləri ötən ildə respublikamızın xarici siyasət sahəsində mövqelərini daha da gücləndirmiş oldu. Heç şübhəsiz, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə görüşündə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevə Türk Dünyasının Ali Ordeninin təqdim edilməsi dövlətimizin Vətən müharibəsindən sonra beynəlxalq arenadakı yüksək nüfuzunun əyani göstəricisidir.

Prezident İlham Əliyevin Dünya İqtisadi Forumunun prezidenti Borge Brende ilə videokonfrans formatında görüşü (aprel ayında), eləcə də Ümumdünya Səhiyyə Təşkilatının əsas qərarverici orqanı olan Ümumdünya Səhiyyə Assambleyasının 74-cü sessiyasının bağlanış mərasimində (may ayında), BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində (sentyabrda) videoformatda təqdim edilmiş çıxışları Azərbaycanın pandemiya ilə mübarizə sahəsindəki fəaliyyətinin dünyada təbliği baxımından mühüm əhəmiyyət kəsb edib. Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin təşkilat adından BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində irəli sürdüyü "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamənin 2021-ci il dekabrın 16-da BMT Baş Assambleyası tərəfindən qəbulu ölkəmizin beynəlxalq səviyyəli növbəti uğuru kimi tarixləşib və ölkəmizin dünyadakı mövqelərini daha da gücləndirib.




Azərbaycan Prezidenti İlham Əliyevin "Qarabağ Dirçəliş Fondunun fəaliyyətinin təmin edilməsi haqqında" 2021-ci il 19 yanvar tarixli Fərmanı işğaldan azad edilmiş ərazilərimizin dövrün tələbləri səviyyəsində bərpası və yenidən qurulması prosesinin ölkəmiz üçün prioritet məsələlərdən olduğunu bir daha təsdiqləyir.

Dövlətimizin başçısının müvafiq Sərəncamı ilə fevralın 2-də təsdiq olunmuş "Azərbaycan 2030: Milli Prioritetlər" sənədinə əsasən, işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsindən sonra Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəldilməsi, reinteqrasiyası və inkişafı iqtisadi siyasətin əsas istiqamətlərindən biri elan edilib.

2021-ci il oktyabrın 26-da istifadəyə verilmiş Füzuli Beynəlxalq Hava Limanı, hazırda inşası sürətlə davam etdirilən Zəngilan və Laçın beynəlxalq hava limanları regionda təkcə investisiya qoyuluşlarına deyil, həm də turizmin inkişafına əlverişli şərait yaratmaq məqsədi daşıyır. Həmin il noyabrın 7-də isə Zəfər Yolunun açılışı olub. Hazırda işğaldan azad edilmiş ərazilərdə 15 fərqli layihə üzrə 1400 kilometrdən artıq uzunluqda yolların, habelə telekommunikasiya şəbəkələrinin qurulması və rabitə xidmətlərinin təşkili üzrə işlər sürətlə davam etdirilir. 2021-ci ildə Şuşa, Füzuli, Kəlbəcər, Cəbrayıl, Zəngilan, Qubadlıda yarımstansiyaların, "Güləbird" və "Kəlbəcər-1" Su Elektrik Stansiyasının istifadəyə verilməsi, habelə "Yaşıl enerji" konsepsiyasının tətbiqinə hazırlıq istiqamətində atılan addımlar bölgənin dayanıqlı enerji təminatına zəmin yaradır.

Sirr deyil ki, COVID-19 pandemiyası ilə əlaqədar dünya iqtisadiyyatında yaranan çətinlikləri hələ tam aradan qaldırmaq mümkün olmayıb. Ancaq Azərbaycan sosial-iqtisadi müstəvidə 2021-ci il ərzində nəinki qarşıya çıxan çətinlikləri həll edib, eyni zamanda yenidən dinamik sosial-iqtisadi inkişaf mərhələsinə daxil olub.

Beləliklə, ölkəmizin öz ərazilərinin işğaldan azad edilməsi regionda yeni geosiyasi, geoiqtisadi vəziyyət yaradıb. Həmin ərazilərin ümumi iqtisadiyyata reinteqrasiyası Azərbaycanın iqtisadi inkişafını daha da sürətləndirəcək.

Həmçinin 2021-ci ildə qeyri-neft sənayesində 20 faizdən çox artım qeydə alınıb. Qeyri-neft ixracı 44 faiz artıb və ilin sonuna qədər qeyri-neft ixracı 2,6 milyard ABŞ dolları təşkil edib. Qeyd edək ki, Azərbaycanın yeni müstəqillik tarixində qeyri-neft ixracı heç vaxt 1,9 milyard ABŞ dollarından yuxarı olmayıb.

Əməkhaqları, təqaüd və müavinətlərin artırılması ilə bağlı Prezident İlham Əliyev tərəfindən imzalanan rəsmi sənədlərin icrasına 1.5 milyard manat ayrılacaq, 2.1 milyon insanı əhatə edəcək, onların maddi rifah halının daha da yüksəlməsinə gətirib çıxaracaq. Bu müstəvidə islahatların yeni mərhələsi Prezident İlham Əliyevin "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" 2021-ci il 16 oktyabr tarixli Sərəncamına əsasən reallaşdırılır. Sərəncamdan irəli gələn məsələlərlə bağlı atılan addımlar, ilk növbədə, həssas əhali qruplarının sosial müdafiəsinin daha da gücləndirilməsinə xidmət edir.

Ermənistanın işğalına son qoyduqdan, ərazi bütövlüyünü bərpa etdikdən sonra Azərbaycan azad edilmiş ərazilərdə postkonflikt dövründə başladığı abadlıq-quruculuq işlərinin miqyasını daha da genişləndirməkdədir. Hazırda azad edilmiş ərazilərin vahid konsepsiya əsasında bərpası həyata keçirilir.

Beləliklə, 2021-ci ildə əldə etdiyimiz böyük uğurların 2022-ci ildə daha yüksək templərlə davam edəcəyinə tam əminlik yaranır.

**Emin QASIMOV,**
**"Respublika".**

Respublika.- 2022.- 13 yanvar.- S.1;6.